**Dövlət Statistika Komitəsi nümayəndəsinin İsveçrənin Cenevrə şəhərində təşkil olunmuş "Statistik məlumatların ötürülməsinə dair" işçi sessiyada iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Məlumatların yayılması şöbəsi müdirinin müavini Sevda Süleymanova BMT-nin Avropa İqtisadi Komissiyasının təşkilatçılığı ilə 2012-ci ilin 27-29 iyun tarixlərində BMT-nin Cenevrə şəhərində təşkil edilmiş Avropa Statistikləri Konfransının işçi sessiyasında iştirak etmişdir. Konfransda Avstriya, Azərbaycan, Danimarka, Estoniya, Finlandiya, Almaniya, İrlandiya, İsrail, Yaponiya, Lüksemburq, Meksika, Hollandiya, Norveç, Rusiya Federasiyası, Serbiya, Sinqapur, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Türkiyə, Amerika Birləşmiş Ştatları, Birləşmiş Krallıq və Uqandanın milli statistika orqanlarının mütəxəssisləri, eləcə də Avropa Mərkəzi Bankı, Gender Bərabərliyi üzrə Avropa İnstitutu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nümayəndələri də iştirak etmişlər.



Tədbiri giriş sözü ilə açan BMT-nin Avropa İqtisadi Komissiyası Statistika Şöbəsinin Statistik informasiya və metodologiya bölməsinin rəhbəri cənab Stiven Veyl işçi sessiyanın gündəliyinə daxil edilmiş məsələlərin aktuallığını qeyd edərək, müzakirə üçün təqdim olunan məsələlərə dair qısa məlumat vermişdi.

Gündəlikdə duran əsas mövzular aşağıdakılardan ibarət idi:

- Sosial media vasitələri;
- Kütlələri cəlb etməyin yeni üsulları;

- Kommunikasiyaların səmərəliliyinin ölçülməsi;
- Etibarlı qarşılıqlı əlaqələrin qurulması və yer üzü boyunca rəqəmlərin əldə olunması;
- Daxili əlaqə.

Təşkilatlar tərəfindən təqdim edilən məruzələrin əsas mövzuları aşağıdakılardan ibarət olmuşdur:

- Bəzi təşkilatlar sosial media siyasətinin və strategiyalarının qəbul edilməsində çətinlik çəkirlər. Əsas səbəb etibarın itirilməsi, məlumatların təhlükəsizliyinin zəifləməsi, lazımi mütəxəssislərin və maliyyə resurslarının olmamasıdır;
- Bəzi təşkilatlar daha geniş auditoriyanı əhatə etmək üçün xarici firmalarla və ya kütləvi informasiya vasitələrinin nümayəndələri ilə əməkdaşlıq etməyə üstünlük verirlər;
- Twitter, Facebook və YouTube-dən sonra təşkilatlar arasında ən populyar alətdir;
- Kütlələrin cəlb olunmasının yeni üsullarını tədqiq edərkən, təşkilatlar adətən interaktiv qrafiklərdən və elektron vasitələrdən istifadə edirlər.

Tədbir gündəliyə uyğun olaraq 4 sessiyaya bölünmüşdür. İlkin sessiya kommunikasiyaların səmərəliliyinə həsr olunmuşdur. Bu sessiyada milli statistika idarələrinin, Avropa Mərkəzi Bankının və Estoniyanın milli statistika orqanının nümayəndələri öz təcrübələri əsasında aşağıdakı mövzular üzrə məlumat vermişlər:

- Səmərəliliyin dəyəri üçün KİV-lə birgə fəaliyyət;
- Məlumatların daha rahat əldə edilməsi üçün istifadəçilərin bilik səviyyəsi;
- 2011-ci ildə əhalinin və ev təsərrüfatlarının siyahıyaalınması və onun effektivliyinin ölçülməsi.

Tədbirin ikinci sessiyasında etibarlı qarşılıqlı əlaqələrin qurulması ilə bağlı məruzələr edildi.

Birləşmiş Krallığın nümayəndəsi öz fəal media strategiyasını təqdim etmişdir. Qeyd olunmuşdur ki, sosial media vasitələri ilə birgə fəaliyyət rəsmi statistikaya etibarı artırır. Media ilə yaxşı əlaqələr daha obyektiv gündəlik işıqlandırmalara gətirib çıxarır. Nümayəndə öz çıxışında statistik rəqəmlərlə yanaşı onların izahının da çatdırılmasının əhəmiyyətini qeyd etmişdir. Bildirilmişdir ki, Birləşmiş Krallığın Milli Statistika Ofisi statistik məlumatların ənənəvi təqdimatı ilə yanaşı mətnlər, videoxülasələr və infoqrafiklər təqdim edir.

Üçüncü sessiya kütlələri cəlb etməyin yeni üsulları ilə bağlı olmuşdur.

Almaniya nümayəndəsi məlumatların toplanmasında kollektiv yanaşmanı tətbiq edən yeni platforma olan Wikidata-nı təqdim etmiş və Wikidata-nın konsepsiyasını, bunun statistik məqsədlər üçün tətbiqi yollarının izahını vermişdir.

Sonuncu sessiya daxili əlaqə ilə bağlı idi.

Avrostatın nümayəndəsi işçi əlaqələrinin konsepsiyasını nümayiş etdirmişdir. Müasir təşkilat üçün daxili əlaqənin vacibliyini təhlil etmiş və təşkilatda daxili əlaqə komandası tərəfindən bu sahədə görülmüş işlərin nümunəsini vermişdir.

İsveç nümayəndəsi öz təşkilatlarında daxili əlaqələrin yaxşılaşdırılması prosesini təqdim etmişdir. Daxili tədqiqat göstərmişdir ki, daxili əlaqələr təşkilat daxilində nəzərə çarpacaq dərəcədə fərqlənir və təşkilatın rəhbərliyi tərəfindən daxili əlaqə üçün daha yaxşı vasitələr, daha sürətli, mükəmməl struktura malik intranet və detallaşdırılmış məlumatlara tələbat var. Təkmilləşdirilmiş daxili əlaqələrin məqsədləri rəhbərlik tərəfindən təqdim olunan məlumatın aydın olması, intranetin təkmilləşdirilməsi, rəhbərlərin ünsiyyət imkanlarının artırılmasından ibarətdir.

İşçi sessiya işgüzar şəraitdə keçmiş, maraqlı diskussiyalar və müzakirələr olmuşdur.